# + BAKI DÖVLƏT UNİVERSİTETİ

## Filologiya fakültəsi

Təsdiq edirəm:
Filologiya fakültəsinin dekanı:
**__________dos. E.H.Məmmədov**
**13 dekabr 2017**
**prot.№03**

# Türkologiya kafedrasının elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında

# H E S A B A T

**BAKI- 2017**

## I. Kafedranın strukturu və ştat cədvəli

Kafedrada ştatda olan 5 müəllim (13 nəfər- 1 şt., 4 nəfər- 0,5 şt.) və1 nəfər baş laborant, 2 nəfər laborant işləyir.

Türkologiya kafedrası aşağıdakı tərkibdə fəaliyyət göstərir:

1. F.e.d. R.B. Əskərov (1954)- kafedra müdiri (1 ştat)
2. Prof. E.İ.Əzizov (1947) (1 ştat)
3. Prof. M.D.Novruzov (1956) (1 ştat)
4. Prof. M.Ə.Məmmədov (1958) (1 ştat)
5. Prof. əv. F.A.Ağayeva (1955) (1 ştat)
6. Dos. İ.D.Vəliyev (1937) (1 ştat)
7. Dos.Q.A.Abdullayeva (1952) (1 ştat)
8. Dos. G.Q.Vəliyeva (1944) (1 ştat)
9. Dos.S.M.Sadıqova (1962) (1 ştat)
10. Dos. G.Ş.Əliyeva (1971) (0,5 ştat)
11. Dos. əv. S.O.Ağayeva (1972) (1 ştat)
12. Dos. əv. F.Ə.Dursunova (1973) (0,5 ştat)
13. Dos. əv. A.C.Məmmədov (1975) (1 ştat)
14. Dos. əv. F.Q.Kərimli (1973) (1 ştat)
15. Müəl. Q.Ş.Xanməmmədov (1963) (1 ştat)
16. Müəl. S.Ə.Cəlilova (1962) (0,5 ştat)
17. Fil.f.d. K.N.Nəcəfova (1974) (0,5 ştat)

## II. Elmi - tədqiqat işlərinin əsas istiqamətləri

2017-ci ildə kafedranın əməkdaşlarının dərs vəsaiti və dərs proqramlarının hazırlanması nəzərdə tutulmuşdur. Kafedrada bu il 11 iclas keçirilmiş, kafedra müəllimlərinin hesabatları dinlənilmişdir.

Kafedranın elmi – tədqiqat işləri müvəffəqiyyətlə yerinə yetirilmişdir.

2017-ci ildə Türkologiya kafedrasının əməkdaşları türk folkloru, qədim, orta əsrlər və müasir dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatı ilə qarşılıqlı əlaqələr istiqamətində tədqiqatlar aparmış və aşağıdakı elmi-tədqiqat işlərini yerinə yetirmişlər. «Türk dillərinin quruluşu, tarixi və dialekt ayırmaları» adlı problem üzrə araşdırma aparmışdır.

**Mövzu: Türkmən ədəbiyyatı (klassik dövrdən sovet dövrünə qədər)**
**İş: a) 1920-ci ilə qədər qədər tükmən ədəbiyyatı**
**İcraçı: f.e.d. R.B.Əskərov**

### Annotasiya

Klassik türkmən ədəbiyyatı Nurməhəmməd Əndəliblə başlayan, Abdulla Şahbəndə, Dövlətməmməd Azadi, Məxdumqulu Fəraqi, Molla Nəfəs, Məmmədvəli Kəminə kimi məşhur sənətkarlarla davam edir.

Bu şairlərin əsərlərinin böyük qismi türkmən dilində nəşr edilmişdir. Əndəlib, Şahbəndə, Dövlətməmməd Azadi, Məxdumqulu Fəraqi, Molla Nəfəsin əsərləri müxtəlif illərdə Azərbaycan dilinə tərcümə edilmiş, ayrı-ayrı kitablar və antologiya halında nəşr edilmişdir. Beləliklə, klassik türkmən ədəbiyyatının tədrisi ilə bağlı məsələlər qismən həll edilmişdir.

**Mövzu: Azərbaycan dilində keçid şivələr problemi**
**İş: a) Azərbaycan dialektologiyasının problemi**
**İcraçı: prof. E.İ.Əzizov**

### Annotasiya

Azərbaycan dilinin dialekt üzvlənməsinin xarakterik xüsusiyyətlərindən biri keçid şivəlik olmasıdır. Keçid şivələr müxtəlif ləhcələrin (yaxud dialekt qruplarının) arasındakı keçid zonasında əmələ gəlir və belə şivələrdə həmhüdud dialektlərin fərqləndirici əlamətləri müşahidə edilir. Azərbaycan dili dialektlərinin türkologiyada geniş yyılmış təsnifatında (M.Şirəliyevin təsnifatı) bu dildə üç keçid

şivənin olduğu qeyd olunur (Göyçay, Ağdaş və Cəbrayıl şivələri). Ancaq həmhüdud dialektlərin sərhədlərində yerləşmiş şivələrin də keçid xarakterli olduğunu göstərir. Monoqrafik tədqiqatların və dilçilik coğrafiyasının faktlarına əsaslanaraq belə nəticəyə gəlmək olar ki, cənub-şərqdə Cəlilabad, Biləsuvar şivələri, nisbətən cənub-qərbdə yerləşmiş Zəngilan və Qubadlı rayonlarının şivələrində keçid tipli şivələrdir.

**Mövzu: Türkmən və qaqauz dilləri**
**İş: a) Oğuz qrupu türk dilləri**
**İcraçı: prof. M.D.Novruzov**

## Annotasiya

Oğuz qrupuna daxil olan türkmən və qaqauz dilləri bir sıra xüsusiyyətlərinə görə ümumilik nümayiş etdirsələr də, müəyyən fərqli xüsusiyyətlər də malikdir. Qaqauz dili özünü fonetik leksik və qrammatik xüsusiyyətləri ilə müasir türk dillərinə yaxınlaşır. Bu, qaqauz dilinin uzun müddət (Osmanlı dönəmi) türk dilinin təsiri altında olması ilə bağlıdır. Türkmən dili isə öz dil özəllikləri ilə Azərbaycan dilinə yaxınlaşır. Türkmən və qaqauz dillərinin bir-biri ilə müqayisəli öyrənilməsi oğuz qrupu türk dilləri daxilində həmin dillərin yerində müəyyənləşdirməyə imkan verir.

**Mövzu: Karaim dili**
**İş: a) Azsaylı türk xalqlarının dilləri**
**İcraçı: prof. M.Ə.Məmmədov**

## Annotasiya

2016-17-ci tədris ilində plan üzrə karaim dilinin mənşəyi, türk dilləri ailəsində mövqeyi və səciyyəvi xüsusiyyətlərini araşdırmışam. Tədqiqat işində öncə karaim xalqlarının coğrafiyası, miqrasiyaları və sayı barədə məlumat verilir. Karaim xalqının və dilinin mənşəyinə aydınlıq gətirilir, fonetik, leksik və qrammatik quruluşu digər müasir türk dilləri ilə müqayisə olunmur. Bu dillə bağlı türkologiyada mövcud mübahisələr izah olunur; bəzi türkoloqların fikirləri təkzib olunur, karaim dillərinin formalaşmasında qıpçaq tayfalarının həlledici rolu konkret faktlarla əsaslandırılır.

**Mövzu: Ə.Nəvai yaradıcılığının ideya-bədii xüsusiyyətləri**
**İş: b) Nəvai Azərbaycan ədəbiyyatşünaslığında**
**İcraçı: dos., f.e.d. F.A.Ağayeva**

## Annotasiya

XV əsr özbək ədəbiyyatının böyük klassiki Ə.Nəvainin yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə yaxından bağlıdır. Nəvaini Azərbaycan ədəbiyyatı ilə bağlayan onun ölməz "Xəmsə"sidir. Azərbaycanın dahi sənətkarı N.Gəncəvi "Xəmsə" yaratdıqdan sonra Yaxın Şərqin ən böyük söz ustaları Nizami mövzularında əsərlər yazmağa çalşırdılar. Bu sənətkarların müştərək mövzuda yazmaqlarına baxmayaraq, hər birisi mövzuya özünəməxsus bir tərzdə yanaşıb, süjeti orijinal surətdə inkişaf etdirmişlər ki, Nəvai də bu sənətkarlar sırasındadır. Elmi işdə Azərbaycan ədəbiyyatının tanınmış sənətkarlarının Nəvai haqda məqalələri, tədqiqatları və monoqrafiyalarına xüsusi yer verilmişdir. H.Araslının, M.Arifin, S.Vurğunun, S.Mümtazın, C.Nağıyevanın Ə.Nəvai haqda yazılarına və fikirlərinə diqqət yetirilmişdir. Azərbaycanlı şairlərin Nəvai məclislərində iştirak etməsi, Nəvainin özünün də Nizami haqda fikirləri diqqət mərkəzində dayanmışdır. Nəvainin əsərləri dəfələrlə Azərbaycanda çap olunmuşdur. Ali və orta məktəblərdə böyük klassiklərlə birlikdə Nəvainin də əsərləri öyrənilir. Azərbaycan xalqı qardaş özbək xalqının dahi oğlu Nəvaiyə şəhərin mənzərəli yerində heykəl ucaltmışdır.

**Mövzu: Feilin təsriflənməyən formalarının tarixi inkişafı**
**İş: a) Feilin tarixi inkişafı**
**İcraçı: dos. İ.D.Vəliyeva**

## Annotasiya

Uzun tarixi inkişaf yolu keçmiş feilin təsriflənməyən formaları Azərbaycan dilinin bütün inkişaf mərhələlərində öz sabitliyini qoruyub saxlaya bilmişdir. Yazılı abidələrin dilində məsdər, feili sifət və feili bağlamalar istər semantik, istərsə də sintaktik cəhətdən müasir ədəbi dilimizdə müqayisədə elə bir əsaslı dəyişikliyə məruz qalmamışdır. Elmi tədqiqat işində feilin təsriflənməyən hər üç forması ayrı-ayrılıqda şərh olunur, həm məsdər, həm feili sifət, həm də feili bağlamaya aid XIII-XIV əsrlərdə qələmə almış yazılı abidələırdə toplanan nümunələr vasitəsilə qrammatik göstəricilərin yaratdıqları məna xüsusiyyətləri və fonetik fərqləri göstərilir.

**Mövzu: Dialekt frazelogiyası**
**İş: a) Azərbaycan dili şivələrinin leksikası**
**İcraçı: dos. G.Q.Vəliyeva**

## Annotasiya

2017-ci ilin elmi-tədqiqat mövzusu dialekt frazelogiyasıdır. Elmi işdə xalq təfəkkürünün məhsulu olan dialekt frazelogiyası müxtəlif istiqamətlərdə araşdırılır. Burada təhlil üçün kifayət qədər dialekt materialı toplanıraraq quruplaşdırılır.

Xalqın düşüncə tərzini, fikrini, mücərrəd və konkret əşya və varlıqların ifadə etmək üçün zəngin söz ehtiyatı toplamaqla dilimizin mükəmməlliyi və rəngarəngliyi önə gətirilir. Bütün deyilənlər müxtəlif bölmələrə ayrılaraq yeri gəldikdə etmoloji şərhlərlə də açılır.

**Mövzu: XVII əsr Azərbaycan ədəbi dilində sintaktik yolla söz yaradıcılığı**
**İş: a) XVII əsr Azərbaycan ədəbi dilinin derivitoloji sistemi**
**İcraçı: dos. Q.A.Abdullayeva**

## Annotasiya

Mövzu XVII əsri təmsil edən görkəmli söz ustadlarının bizə miras qalan ədəbi-bədii dil nümunələri əsasında aparılıb. Müəyyənləşdirilib ki, bu istiqamətdə söz yaradıcılığı ənənəvi üsulla gedir. Konkret olaraq, adlarda və eləcə də feillərdə sintaktik yolla söz yaradıcılığı izlənilir. Müqayisəli təhlil nəticəsində ekvivalentliklə yanaşı diferensiallığın da mövcudluğu ortaya qoyulur. Diferensiallıq, təbii ki, novatorluğa imza atan faktik dil nümunələrinin qeydə alınması ilə reallıq qazanır. XVII əsr Azərbaycan ədəbi dilinin derivitoloji sisteminin izlənilməsi adlarda eyni leksemlərin təkrarı ilə yaranan lüğəvi dil nümunələrinin, feillərdə isə frazeoloji birləşmələrin, eləcə də tərkibi feillərin aparıcılığını üzə çıxarır. Nəticə isə budur ki, XVII əsr Azərəbaycan ədəbi dilinin leksik norması da xəlqiləşməyə döğru istiqamətlənməni təminatçısı rolunda çıxış edir.

**Mövzu: Nigari "Divan"ının frazeoloji sistemi**
**İş: a) Mir Həmzə Nigari "Divan"ının frazeloji sistemi**
**İcraçı: dos. S.M.Sadıqova**

## Annotasiya

Elmi tədqiqat işində qarşıya qoyulan məqsəd frazeoloji vahidlər və ya sabit söz birləşmələri ilə bağlı elmi nəzəri görüşlərə fəlsəfi poeziya müstəvisində yanaşmaq,

Nigarı yaradıcılığında onun işlənmə mexanizmini, üslubi çalarlarını tədqiq etmək və tarixi təkamül prosesini izləməkdən ibarətdir.

Nigarı klassik fəlsəfi poeziyanın XIX əsrdə davamıdır. Nigarının dili həm də Azərbaycan ədəbi dilinin osmanlı mühitində inkişafı və fəaliyyəti baxımından maraq doğurur. Maraqlıdır ki, Nigari türkiyə mühitində yaşayıb yaratmasına baxmayaraq. Onun yaradıcılığı Azərbaycan ədəbi dilinin leksik qrammatik xüsusiyyətlrini özündə tam əks etdirir. Klassik poeziyanın frazeoloji vahidləri şairin yaradıcılığında fəlsəfi düşüncənin bədii ifadə sistemini zənginləşdirir. *Ahım odu, gözümün nuru, əldəyməz, ayaqdəyməz, oda yanmış dilim, qara bağrım: odlara düşdün, cək başa , dag cəkmiş, dil vermə, canə gəlmiş (yorulmuş), can vermək, bəxt yar olsa* və s. kimi ismi və feili frazeologizmlər geniş işləkliyə malikdir.

**Mövzu: XX əsr türk romanlarında qadın obrazları**
**İş: ç) S.Dərvişin əsərlərində qadın obrazları**
**İcraçı: dos. G.Ş.Əliyeva**

**Annotasiya**

Cümhuriyyət dövrü Türkiyə ədəbiyyatında xüsusi mövqe tutan qadın yazarlardan biri Suad Dərvişdir. Yazıçı əsərlərində xalqın problemini qələmə almış və acınacaqlı həyatını işıqlandırmışdır. Suad Dərvişin əsərlərində diqqət çəkən xüsusiyyətlərdən biri yazıçının feminizmidir. Yazıçının bir neçə romanında baş qəhrəman qadındır. Əsərdə baş verən hadisələr qadının ətrafında cərəyan edir. Bu adınlar cəmiyyətdə bir çox haqsızlıqlarla, layiq olmadıöı rəftarla üzləşirlər. Bu qadının saflığı, xoş niyyətli olması onunn alçaldılmasına, başına bədbəxt hadisələrin gəlməsinə səbəb olur ("Fosforlu Cevriyə"də Cevriyə, Kübra). Amma onu da qeyd etmək lazımdır ki, ədib müxtəlif qadın obrazları yaradır. Məsələn, "Ankara məhbusu" romanında bədbəxtliklər qadının deyil, qadın ucbatından yaranan bədbəxtliklərdir.

**Mövzu: S.Əlinin əsərlərinin janr müxtəlifliyi, problem və mövzu rəngarəngliyi**
**İş: c) S.Əlinin əsərlərinin dil-üslub xüsusiyyətləri**
**İcraçı: fil.f.d. S.O. Ağayeva**

**Annotasiya**

XX əsr Türkiyə ədəbiyyatında özünəməxsus dəst-xətti olan Səbahəddin Əli zəngin ədəbi irsə sahibdir. S.Əlinin yaradıcılığında psixologizm xüsusi yer tutur. Ədib əsərlərində obrazların psixoloji yaşantılarının, hiss və duyğularının, mənəvi aləminin ifadə olunmasında dialoq və monoloqlardan istifadə edir. Yazıçının ziddiyyətli

xarakterlərə sahib olan qəhrəmanlarının daxili nitqində gah ümidsizlik, bədbinlik, həyatdan küskünlük, gah da sevinc, həyata bağlılıq müşahidə olunur. S.Əli əsərlərində (“İçimizdəki şeytan”, “Kürk paltolu madonna”, “Quyucaqlı Yusif”) ictimai-siyasi və sosial hadisələr fonunda obrazların lakonik və rəngarəng dili vasitəsi ilə onların daxili aləmini aça bilir.

**Mövzu: Müasir türk nəsri**
**İş: e) İ.Aralın yaradıcılığında qadın obrazları**
**İcraçı: fil.f.d. F.Ə. Dursunova**

## Annotasiya

XX əsr Türkiyə ədəbiyyatı üçün dönüş nöqtəsi olub. Ənənəvi olaraq Türkiyə ədəbiyyatında cəmiyyətin fəal üzvləri olan kişi obrazları üstünlük təşkil edirdi. XX əsrdə artıq məşhür qadın yazıçılar ortaya çıxır. Müsəlman türk qadını mövzusu ən aktual problemərdən birinə çevrilir. Bu məsələyə cəmiyyətin diqqətini çəkmək üçün Türkiyə ədəbiyyatında parlaq və rəngarəng qadın obrazları yaradılır. XX əsrin sonunda isə bu tendensiya yeni vüsat alır. Türk ədəbiyyatının ən unudulmaz 10 qadın obrazlarından biri də İnci Aral'ın “Ölü Erkək Quşlar” romanındakı Suna obrazı olur. İlk baxışda “Ölü Erkək Quşlar” romanı adi eşq üçbucağını həsr olunmuşdur. Suna evli olduğu Ayhanı sevir, lakin Onura da aşiqdir. Hər ikisini də itirmək istəmir. İntellektual olduğu halda düşüncələrini, hisslərini, davranışlarını qaydaya sala bilmir, ənənəvi türk ailəsində tərbiyə alan Suna bunun təsirindən xilas ola bilmir. Sunanın içində Su və Na adlı iki ayrı ruh mübarizə aparır. Su həyatını fədakarlıq üzərində quran, evdar ənənəvi türk qadınıdır. Na isə ehtiraslı, üsyankar, xəyalpərəst, müstəqil bir qadındır. Müəllif Suna obrazı əsasında müasir türk qadının emansipasiyası məsələsinə toxunmuş türk müsəlman toplumunda nigah inistitutu adlanan sosial problemindən söhbər açmışdır.

**Mövzu: Qıpçaq qrup türk dillərində dilçilik terminləri (noqay dili)**
**İş: a) Türk dillərində dilçilik terminləri**
**İcraçı: dos. əv. A.C.Məmmədova**

## Annotasiya

Türk dillərinin qıpçaq qrupunun dilçilik terminlərinin qarşılıqlı tədqiqi elmi ədəbiyyatda işlənilməmiş bir mövzudur. Tədqiqat işi ilə bağlı olaraq, qıpçaq qrupuna daxil olan noqay dilinin dilçilik terminlərinin toplanılması nəzərdə tutulmuşdur. Bunun üçün lüğət, elmi ədəbiyyat və internet vasitəsilə noqay dilində işlək olan dilçilik terminləri seçilmiş və qıpçaq qrupuna daxil olan digər türk dilləri

ilə qarşılaşdırılması aparılmışdır. Noqay dilində əsasən Rus və Avropa dillərindən alınmış dilçilik terminlərinin digər türk dilləri ilə müqayisədə daha çox olduğu qənaitinə gəlmişdir. Respublikamızda noqay dili ilə bağlı elmi ədəbiyyat və lüğətlərin az olması, çətin toplanılması, tədqiqat işinin ləngiməsinə səbəb olmuşdur. Lakin bütün bu çətinliklərə baxmayaraq noqay dilində dilçilik terminləri ilə bağlı yetərli məlumat əldə etmişdik.

**Mövzu: 1920-ci illərdə Azərbaycan ədəbi dilində düzətmə sözlər**
**İş: a) 1920-ci illər Azərbaycan ədəbi dilində söz yaradıcılığı**
**İcraçı: dos. əv. F.Q.Kərimli**

## Annotasiya

Azərbaycan türkcəsinin düzətmə sözlər vasitəsilə dilin lüğət tərkibini zənginləşdirmək imkanlarının genişliyi özünü 20-ci illərdə daha böyük vüsətlə nümayiş etdirirdi. Müşahidələr göstərir ki, müxtəlif mənşəli ənənəvi düzətmə sözlər bu və ya digər dərəcədə semantik dəyişikliyə məruz qalaraq işləkliyinin genişləndirir, məhsuldar şəkilçilər vasitəsilə həm milli, həm milliləşmiş, həm də rus-Avropa mənşəli alınma leksik vahidlərdən yeni sözlər yaradılır.

Yeni sözlər düzətmə hərəkatı bir sıra hallarda süni yaradıcılıq səviyyəsinə enir ki, bu cür hallara qarşı etirazlar da özünü göstərir. 20-ci illərdə yaranan, yaxud daha əvvəl yaranıb bu illərdə fəal işləklik qazanan düzəltmə sözlər “yeni qurluşla” əlaqədar ideyaları, qrumları, yeni texnalogiyaları bildirən, maarif, elm və mədəniyyətin inkişafı ilə meydana çıxan anlayışlardır. Bu ilərdə söz yaradıcılığı prosesinə (düzətmə sözlərin yaradılmasına) strateji məsələ kimi baxılmış, ədəbi dilin “dirildilməsi” və zənginləşməsi üçün bu əsas yol sayılmışdır. Bu hərəkatın tərəfdarları, məhz türk mənşəli köklərə şəkilçi artırmaqla yeni sözlər düzətmək mövqeyində dayansalar da, sonrakı illərdə həmin mövqey liberallaşmış, dildə işlənən bütün sözlərin bu prosesdə iştirakı məqbul görünmüşdür. 20-ci illərdə söz yaradıcılığı prosesində düzətmə sözlər yaratmağa meyl, bütün problemlərinə baxmayaraq, kifayət qədər intensiv olmuşdur.

**Mövzu: XX əsrin əvvələrində Azərbaycan-Türkiyə ədəbi əlaqələri**
**İş: e) Əbdülhəq Hamid və Azərbaycan ədəbiyyatı**
**İcraçı: fil.f.d. K.N.Nəcəfova**

## Annotasiya

Əbdülhəq Hamid (1852-1937) XIX əsrin ikinci yarısı-XX əsrin birinci yarısında Türkiyənin ən böyük şairlərindəndir. Türkiyə ədəbiyyatına Şinasinin, Ziya Paşanın, Namiq Kamalın gətirdiyi yenilikləri davam etdirmək yoluyla gedən Ə.Hamid bu yeniləşmədə daha yüksək zirvələrə qalxmış, türk şeirini həm məzmun, həm formaca zənginləşdirmişdir. Tədqiqiat işində Ə.Hamidin ədəbi təsirindən, Azərbaycan ədiblərindən H.Cavid və M.Hadiyə təsirindən danışılır. XX əsrin əvvəllərində Azərbaycan mətbuatında, türk ədəbiyyatı nümayəndələrinin yaradıcılığına geniş yer verildiyi "Füyuzat", "Maarif və mədəniyyət", "Qızıl qələm", "Şərq qadını" kimi qəzet və jurnallarda çap olunan Ə.Hamidlə bağlı məqalələr təhlil olunur. Azərbaycanda Ə.Hamidin həyatı və yaradıcılığı ilə bağlı məlumatlar, əsərlərindən parçalar dərs kitablarında, tədris vəsaitlərində də özünə müəyyən yer tutmuşdur. A.Şaiqin "Türk ədəbiyyatı", H.Cavidlə A.Şaiqin "Ədəbiyyat dərsləri" dərsliklərində də Əbdülhəq Hamidin yaradıcılığına yer verilir. Zəmanəsinin, yaşadığı cəmiyyətin əsas problemləri, bəşəriyyətin istiqbalı Hamidi düşündürən əsas məsələlər olmuşdur. Məhz buna görədir ki, Hamid yaradıcılığı Azərbaycan ədiblərinin diqqətini cəlb etmiş, qabaqcıl ideallarına görə ondan bəhrələnmişlər.

**Mövzu: Alınmalarda zərf və tərkibi feillərdə ərəbizm və farsizimlərin tarixi izi**

**İş: e) M. Füzulinin dilində alınmalar**

**İcraçı: Müəl. Q.Ş.Xanməmmədov**

## Annotasiya

Azərbaycan ədəbi dil tarixində ən mükəmməl nümunəsindən biri olan M. Füzulinin dili milli və alınma dil nümunələrilə zəngindir. Füzuli dilində alınma leksika üstünlük təşkil edir. Bəzən baxmayaraq leksika vahidlərin əksəriyyəti alınmadır. Bir –dır şəkilçisi cümlənin tipini milliləşdirmişdir. "Tovqi zənciri cümun daireyi dövlərdir." Füzuli dilində bu cür misallar çoxdur. Ərəb və fars sözlərin içərisində zərf və feilin sayı çoxluq təşkil edir. "Nola aləmi əcəl çəkəm ladeyi nab, Sərməst yatam qəlirdə taruze hesab." Bu cümlələrdə zaman zərfləri alınma sözlərlə ifadə olunur. Füzuli dilində bu cür nümunələr kifayət qədərdir. Feillərdə gəlincə buna aid misallar çoxluq təşkil edir. Ərəb dilindən alınmış feil mənşəli sözlər daha çox etmək, qılmaq, almaq köməkçi feilləri ilə birgə işlənmişdir. "Aşıq oldun canın fəda qılır canına, Meyli canan etməsin hər kim ki qıymaz canına." Füzuli dilində bu cür misallar ədibin hər üç dilə mükəmməl bələd olduğunu və hər üç dildən istifadə edərək o dövür üçün Azərbaycan ədəbi olan normativi müəyyənləşdirmişdir. Füzulinin dilində alınmalar dil tarixi baxımından maraqlı və əhəmiyyətlidir.

**Mövzu: M.Füzulinin dilində cümlənin baş və ikinci dərəcəli üzvləri**
**İş: e) M. Füzulinin dilində sintaktik xüsusiyyətlər**
**İcraçı: Müəl. S.Ə.Cəlilova**

## Annotasiya

Füzulinin dilinin sintaktik quruluşu şairin üslubuna müvafiq olaraq bəzən də fərdi xüsusiyyətlər kəsb etmişdir. Füzulinin dilinin cümlənin nəzərdən keçirdiyimiz zaman həmin həmin cümlələrin əmələ gəlməsində iştirak edən cümlə üzvlərinin quruluşu və vəzifəsi müasir dilimizdən o qədər də fərqlənmədiyini gördük. Cümlədəki məqsəddən asılı olaraq bütün nitq hissələri az və ya çox mübtəda vəzifəsində işləndiyinə aid nümunələr üzərində təhlil aparmağı lazım bildik. Füzuli dili üçün maraqlı cəhət burasıdır ki, cümlənin bu və ya digər bir üzvü xəbər şəkilçisi qəbul edərək cümlənin əsas xəbəri kimi işlənmişdir. Bundan başqa Füzuli dilində işlənən təyin, tamamlıq və zərflikləri də nəzərdən keçirməyi lazım bildik.

## Kafedra əməkdaşlarının çap olunmuş kitab və məqalələri

### Fil.e.d. R.B.Əskərov

**1.** Kitabi-Dədə Qorqud biblioqrafiyası. Bakı: BXQR, 2017, 1-ci cild, 624 s. (39 ç.v.)
**2.** Kitabi-Dədə Qorqud biblioqrafiyası. Bakı: BXQR, 2017, 2-ci cild, 336 s. (21 ç.v.)
**3.** Yusuf Balasaguni ve Kutadgu Bilig Bibliyografyası. Bakü: BXQR, 2017, 336 s. (21 ç.v.)
**4.** Qutadğu Bilig hikmətləri. Bakı: 2017, BXQR, 136 s. (9 ç.v.)
**5.** İbrahim Qəfəsoğlu. Türk milli kültürü. Bakı: BXQR, 2017, 474 s. (30 ç.v.)
**6.** Möhtəşəm abidə. Kitabi-Dədə Qorqud biblioqrafiyası. Bakı: BXQR, 2017, 1-ci cild, 624 s. (önsöz, s. 3-8)
**7.** Oğuzların Kutsal Kitabı. Kitabi-Dədə Qorqud biblioqrafiyası. Bakı: BXQR, 2017, 2-ci cild, 336 s. (önsöz, s. 3-11)
**8.** Kutlu bilgenin kutlu bitigi. Yusuf Balasagunlu ve Kutadgu Bilig Bibliyografyası. Bakü: BXQR, 2017, 336 s. (önsöz, s. 3-15)
**9.** Böyük bilgə buyurmuş ki... Qutadğu Bilig hikmətləri. Bakı: 2017, BXQR, 136 s. (önsöz, s. 3-18)
**10.** Türk milli bilgini İbrahim Qəfəsoğlu. İbrahim Qəfəsoğlu. Türk milli kültürü. Türkcədən. Bakı: BXQR, 2017, 474 s. (önsöz, s. 7-12)
**11.** Sonuncu mogikan. “Ulduz ömürlü insan” (Yusif Seyidov haqqında kitab). Bakı, Elm və təhsil, 2017, s.241-246 (məqalə)

**12.** Azərbaycanda türkologiyanın qısa tarixi. Folklorşünaslıq. Elmi-nəzəri jurnal. Bakı, 2017, s. (məqalə)
**13.** Abay. Bakı: Mürtəcim, 2017, 252 səh. (kitabın redaktoru)
**14.** Firuzə Ağayeva. XX əsr özbək şeiri. Bakı, 2017, 63 s. - metodik vəsait (redaktor)
**15.** K.Nəcəfova. Türk xalqları ədəbiyyatında türkçülüyün tarixi. Bakı: Avropa, 2017, 44 s. (redaktor)
**16.** Firuzə Ağayeva. Klassik türkmən poeziyası. Bakı: Bakı Universiteti nəşr., 2016, 300 s. - dərs vəsaiti (rəy)
**17.** Babayeva O. Diriliş şairi Sezai Karakoç. Bakı, 2017, 152 səh. (rəy)
**18.** Ramiz Qusarçaylı. Gedəsən dünyanın axırınacan.. Bakı, 2017, s. 3-15 (önsöz)
**19.** Ə.Tanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2017, 538s. (rəy)
**20.** H.Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda respublika elmi-nəzəri konfransı. Bakı, 2017, 17-18 may **(**konfransın təşkili)
**21.** M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda respublika elmi-praktik konfransı. Bakı, 2017, 7 dekabr (konfransın təşkili)

## Prof. E.İ.Əzizov

**1.** Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, 2017, 8s.-proqram
**2.** Azərbaycan dilçiliyinin fəxri. Ağamusa Axundov xatirələrdə. Bakı, 2017, səh. 114-117-məqalə
**3.** Məhərrəmova A.A. "Koroğlu" dastanının üslubi-poetik sintaksisi.- filologiya elmlər üzrə fəsəfi doktoru dissertasiyası, 2017-opponent
**4.** Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti. Bakı, 2017, 301 s.-rəy
**5.** A.Axundovun 85 illiyinə həsr olunmuş "Ağamusa Axundov və Azərbaycan filologiyası" mövzusunda Beynəlxalq konfrans. 24-25 aprel 2017-konfransın təşkili
**6.** Qızılgül Abdullayeva. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. I hissə. Bakı: "Elm və təhsil", 2017, 392 s. (rəy)
**7.** Qızılgül Abdullayeva. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi. II hissə. Bakı: "Elm və təhsil", 2017, 256 s. (rəy)
**8**.M.P.Vaqifin dili haqqında. M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzuunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017, 7 dekabr, s.10-14-məqalə
**9**.E.İbrahimov. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı: Mütərcim, 2017, 184s.- rəy

**Prof. M.D.Novruzov**

1. Türk əlifbaları (Suriya əlifbası). Filologiya məsələləri Bakı, “Elm və təhsil” №16, 2017, səh. 3-19-məqalə
2. Görkəmli alim, ustad pedaqoq, gözəl insan (Professor Yusif Seyidovun portret cizgiləri). Bakı, “Elm və təhsil”, 2017, səh.132-137-məqalə
3. Qızılgül Abdullayeva. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. I hissə. Bakı: “Elm və təhsil”, 2017, 392 s. (rəy)
4. Qızılgül Abdullayeva. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi. II hissə. Bakı: “Elm və təhsil”, 2017, 256 s. (rəy)
5. Türk dillərində nitq hissələri problemi. M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş “M.P.Vaqif və müasirlik” mövzuunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017, 7 dekabr, s.301-303 –məqalə
6. Türk dillərində saitlər məsələsinə dair. Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). Bakı: BDU-nun nəşri, 2017, № 4(104) s.61-64-məqalə
7. L.Yusifova. Dildə məcburiyyət anlayışının ifadəsi. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiya işinə-opponent
8. Türk yazısının tarixi. Bakı: Ləman nəşr.,2017, 112 s. 7ç.v.-kitab

**Prof. M.Ə.Məmmədov**

1. Y.Seyidov və dil tarixi məsələləri. Ulduz ömürlü insan kitabı. Bakı, Elm və təhsil, 2017, s.241-246-məqalə
2. Urum dilinin mənşəyi, mövqeyi və əsas xüsusiyyətləri. Türk filologiyası. Bakı, 2017-məqalə
3. Qəmbərova Sevinc Baris qızı-filologiya üzrə fəlsəfə doktoru- dissertasiya işinə elmi rəhbərlik
4. Məmmədov Bəhram Cəfər oğlu. Xaçmaz rayonu onomastik vahidlərinin tarixi linqivustik təhlili.-filologiya üzrə fəlsəfə doktoru, 6 iyun, 2017-opponent
5. E.Əzizov. Azərbaycan dilinin tarixi dialektologiyası, 2017, 8 səh.redaktor
6. E.Səmədova. Türkologiyaya giriş (dərs vəsaiti). Bakı, 2017, 160 səh-redaktor
7. E.Səmədova. Türkologiyaya giriş (proqram). Bakı, 2017, 16 səh-redaktor
8. Babayeva O. Diriliş şairi Sezai Karakoç. Bakı, 2017, 152 səh.-rəy
9. Hacıyeva Q. Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin, Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi. Naxçıvan 2017, 328 səh.-rəy
10. Ə.Tanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2017, 538s.-rəy
11. B.Xəlilov. Müasir Azərbaycan dili (sintaksis). Bakı, 2017-rəy

12. Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti (Həmmüəllif). Bakı, 2017, 30s.
13. Elburus Əzizov-70. Türkologiya jurnalı. 2017 №4-məqalə
14. Abdullayeva-Nəbiyeva V.A. Müasir Azərbaycan dilində terminoloji leksikanın intişaf istiqamətləri. Bakı, 2017-opponent
15. Əzizxan Tanrıverdi. Dilimiz, düşüncəmiz. Bakı, "Elm və təhsil", 2017, 360 s. (rəy)
16. Qızılgül Abdullayeva. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. I hissə. Bakı: "Elm və təhsil", 2017, 392 s. (rəy)
17. Qızılgül Abdullayeva. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi. II hissə. Bakı: "Elm və təhsil", 2017, 256 s. (rəy)
18. Tofiq Hacıyev. Seçilmiş əsərləri. 7 cilddə. I cild, II hissə. Bakı: Elm, 2017, 448 (rəyçi)

## Prof. əv. F.A.Ağayeva

1. Abay. Bakı: Mürtəcim, 2017. 252 səh.-kitabın redaktoru
2. Mövlana və Eşq.Dil və Ədəbiyyat.Beynəlxalq elmi-nəzəri jurnal, 3-103, Bakı 2017 səh.186-190-məqalə
3. XX əsr özbək şeiri. Bakı, 2017, 63 s.-metodik vəsait
4. Klassik türkmən poeziyası. Bakı: Bakı Universiteti nəşr., 2016, 300 s.-dərs vəsaiti
5. S.Ağayeva. Məqsud Şeyxzadənin yaradıcılığı. Bakı: Elm və təhsil, 2017, 104s. –rəy
6. K.Nəcəfova. Türk xalqları ədəbiyyatında türkçülüyün tarixi. Bakı: Avropa, 2017, 44s. –rəy

## Dos. İ.D.Vəliyev

1. M.Zəririn "Yusif və Züleyxa" məsnəvisinin dilində qrammatik arxaizmlər. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017, səh 440-444-məqalə
2. Azərbaycan yazılı abidələrinin dilində ədat. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017, səh 444-449-məqalə

## Dos. G.Q.Vəliyeva

1. İslam dəyərlərinin dildə təzahürü. “İslam həmrəyliyi-2017” reallıqlar və prespektivlər” mövzusunda respublika elmi-metodik konfransının materialları. 25-26 aprel 2017, səh. 244-məqalə

**Dos.Q.A.Abdullayeva**

1. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. 2 hissəli. I hissə. Bakı: Elm və təhsil, 2017, 392 s., 25 ç.v. (monoqrafiya)
2. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi. 2 hissəli. II hissə. Bakı: Elm və təhsil , 2017, 256 s., 16 ç.v. (monoqrafiya)
3. XVII əsr Azərbaycan ədəbi dilində «y» başlanğicli sözlər və onlarin tarixi inkişafi / «A.Axundov və Azərbaycan filologiyası» beynəlxalq elmi konfransının materialları. 24-25 fevral. Bakı, 2017, s. 223-226-məqalə
4. Zərf XVII əsrin dil mənzərəsində. Filologiya məsələləri, 2017, № 11, s. 29-36-məqalə
5. Qədim türk sözlərinin yaşam tarixindən sonraki taleyi. Filologiya məsələləri, 2017, № 5, s. 3-11-məqalə
6. XVII əsr Azərbaycan ədəbi dilində «qardaş» sözü: *etmologiyasi, fonoforma və semantik tutum variantlari*. Filologiya məsələləri, 2017, № 7, s.10-15-məqalə
7. Azərbaycan mətbuatina osmanli türkcəsinin təsiri. Dil və ədəbiyyat seriyası (Beynəlxalq elmi-nəzəri yurnal). Bakı, 2017, № 2(102), s. 413-414-məqalə
8. «Dədə Qorqud kitabi»nda mürəkkəb cümlənin struktur-semantik mənzərəsi Dil və ədəbiyyat seriyası (Beynəlxalq elmi-nəzəri yurnal). Bakı, 2017, № 3 (103), s.433-435-məqalə
9. Nəsimi leksikasi oğuz qrupu dilləri ilə müqayisədə (Beynəlxalq elmi-nəzəri yurnal). Bakı, 2017, № 4 (104), s. 616-617-məqalə
10. XVII əsr Azərbaycan ədəbi dilində əşyanin əlamət və kəmiyyətinin tarixi ifadəsi. BDU-nun Elmi xəbərləri, Humanitar elmlər seriyası, 2017, № 2, s. 12-18-məqalə
11. Bağlayıcılar və modal sözlər XVII əsr Azərbaycan ədəbi dilinin morfoloji sistemində. BSU-nun Elmi əsərləri, Dil və ədəbiyyat seriyası. Bakı, 2017, № 1, s.185-190-məqalə
12. Tofiq Hacıyev. Seçilmiş əsərləri. 7 cilddə. I cild, II hissə. Bakı: Elm, 2017, 448 (redaktor)
13. Babacan Süleymanoğlu Dərələyəz. Məhəbbətin izi ilə . Bakı: Gənclik, 2017, 284 s. (redaktor)
14. Tahirə İmanıva. Unuda bilmirəm. Bakı: Gənclik, 2017, 144 s. (redaktor)
15. Hacıyev T. Seçilmiş əsərləri. 7 cilddə. II cild. Bakı: Elm, 2017, 490 s. (rəyçi)

**Dos.S.M.Sadıqova**

1. Poetik dil:könülün səsi, ağılın sözü. Nəsimi 600. Ey Nəsimi, cahanı tutdu sözün. AMEA-nın müxbi üzvü, Əməkdar Elm Xadimi, professor R.Azadənin xatirəsinə ithaf olunmuş III Beynəlxalq Elmi Konfransın materialları. 23-24 iyun. Bakı, 2017, s.164-169-məqalə
2.Nigari şeirində sevgi anlayışının dil aspektləri. III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu materialları. Şamaxı, Azərbaycan, 17-18.05.2017, s.80-86-məqalə
3. Tofiq Hacıyev. Seçilmiş əsərləri. 7 clddə. I cild, II hissə. Bakı: Elm, 2017, 448 (rəyçi)

**Dos. G.Ş.Əliyeva**

1. Abay. Bakı: Mütərcim, 2017. 252 səh.-kitabın redaktoru

**Dos. əv. S.O.Ağayeva**

1. Abay. Bakı: Mütərcim, 2017. 252 səh.-kitabın redaktoru
2. Məqsud Şeyxzadənin bədii sənətkarlığı. Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). Bakı: BDU-nun nəşri, 2017, № 2(102) s.291-293-məqalə
3. Məqsud Şeyxzadənin yaradıcılığı. Bakı: Elm və təhsil, 2017, 104 səh., 6 ç.v. – dərs vəsaiti

**Dos. əv. F.Ə.Dursunova**

1. Abay. Bakı: Mütərcim, 2017. 252 səh.-kitabın redaktoru
2. Türk bədii nəsrinin ilk qaynaqları. Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2017, sayı 1, s.51-56-məqalə
3. XIX əsrin ortalarına qədərki türk ədəbiyyatında bədii-sənədli nəsr. Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). Bakı: BDU-nun nəşri, 2017, № 2(102) s.316-319-məqalə

**Dos. əv. A.C.Məmmədova**

1. Tofiq Hacıyev. Seçilmiş əsərləri. 7 cilddə. I cild, II hissə. Bakı: Elm, 2017, 448s. (rəyçi)

**Müəl. f.ü.f.d. K.N.Nəcəfova**

1. N.F.Qısaküryəyin lirikasında nəfs problemi və lirik “mən”in mənəvi təkmilləşməsi. Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2017, sayı 1, s.43-50-məqalə
2. Türk xalqları ədəbiyyatında türkçülüyün tarixi. Bakı: Avropa, 2017, 44s.-metodik vəsait
3. Abay. Bakı: Mütərcim, 2017. 252 səh.-kitabın redaktoru
4. Firuzə Ağayeva. XX əsr özbək şeiri. Bakı, 2017, 63 s.-metodik vəsait -rəy

**Dos.əv. F.Q.Kərimli**

**Müəl. Q.Ş.Xanməmmədov**

1. Türk dillərində saitlər məsələsinə dair. Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). Bakı: BDU-nun nəşri, 2017, № 4(104) s.61-64-məqalə

**Müəl. S.Ə.Cəlilova**

1. Füzulinin dilində frazeoloji birləşmələrin işlənmə xüsusiyyətləri. Gəncə Dövlət Universitetinin xəbərləri. 2017, №3, səh. 109-məqalə

## XARİCDƏ ÇAP EDİLMİŞ MƏQALƏLƏR

**Prof. M.Ə.Məmmədov**

1. Güney Azərbaycan şivələrində zaman formaları. VIII Uluslararası Türk Dili Qurultay, Ankara, 2017, s. 177-178 (tezis)

**Prof. əv., f.e.d. F.A.Ağayeva**

1. Bütün bəşəriyyətin oğlu. Abay Kunanbayevin yaradıcılığı xarici ədəbiyyatşünaslıqda. Qazaxıstan, Almatı, 2016, səh. 9-19-məqalə
2. Г.Тукай и Азербайджан. «Российская провинция как социокультурное поле формирования гражданской и национальной идентичности. (Сборник

научных трудов). Татарстан, город Елабуга, 16-17ноябрь, 2017, с. 160-162-məqalə

**Dos. Q.A.Abdullayeva**

1. XVII century Azerbaijan Language: Social political Content of that Period and view of Language // Epistemologia, Bologna (İtaly), Volume XXXX, 2017, İssue 2, s. 52-63-məqalə
2. Oğuz-Kıpçak və Kıpçak-Oğuz paralelliği. 17. Yüzyıl Azerbaycan Türkcesinin Dil Manzarasında. 8.Uluslararası Türk dili Kurultayı (22-26 Mayis). Ankara, 2017, s. 29-30- tezis
3. Azərbaycan və Türkiyə türkcəsi paralelliyində ümumünsiyyət faktından ortaq türkcəyə keçid / Uluslararasi Türk Dili Konuşan Ülkeler Kurultayi (15-16 Kasım). Ankara, 2017-tezis
4. Türk Kökenli Kelimelerin en Eski Fonolojik Sonluğu (*Eski türk dili - XVII. yüzyil Azerbaycan türkçesi*). IX uluslararası dünya dili türkce sempozyumu materialları. Malatya, 2017, 02-04 noyabr , s.92- tezis

**Dos. G.Q.Vəliyeva**

1. Ağızlarla ilgili deyimler etnik düşüncenin tezahürü gibi. IX uluslararası dünya dili türkce sempozyumu materialları. Malatya 02-04 noyabr, 2017, s.150-tezis

**Dos.əv. S.O.Ağayeva**

1. Maqsud Şeyxzadə tarixi dram ustası kimi. Ukraniya Respublikası, Kiyev. “Dil və mədəniyyət” jurnalı buraxılış 19, IV (184),c., s.194-201 –məqalə

**Dos. əv. A.C.Məmmədova**

1. “Mukaddimetül-edeb”de türkçe İslami terminlər. Marmara Universiteti Türkiyat Araşdırmalar dərgisi. İstanbul, 2017, s.449-461

## Konfransda iştirak

**F.e.d. R.B.Əskərov**

1. 28 fevral-01 mart 2017-ci il tarixlərində Bayburt Universiteti Dədə Qorqud Tətbiq və Araşdırma Mərkəzi, Bakı Yunus Əmrə İnstitutu, Bakı Dövlət Universiteti, Qazax Milli Sənətlər Universiteti və Qırğızıstan-Türkiyə

Manas Universitetinin iş birliyi ilə "Qorqud Atadan günümüzə aşıqlıq ənənəsi" adlı Beynəlxalq Simpozumunda iştirak etmişdir.
2. 13-16 noyabr 2017-ci il tarixində Türkiyə Respublikasının Ankara şəhərində Türk dili danışan ölkələr qurultayında iştirak etmişdir.

**Prof. M.Ə.Məmmədov**

1. 22-26 may 2017-ci il tarixində Türkiyə Respublikasının Ankara şəhərində "Güney Azərbaycan şivələrində zaman formaları" mövzusunda məruzə ilə VIII Uluslararası Türk Dili Qurultayında iştirak etmişdir.

**Dos. Q.A.Abdullayeva**

1. 22-26 may 2017-ci il tarixində Türkiyə Respublikasının Ankara şəhərində "Oğuz-Kıpçak və Kıpçak-Oğuz paralelliği" mövzusunda məruzə ilə "17.Yüzyıl Azerbaycan Türkcesinin Dil Manzarasında" adlı 8.Uluslararası Türk dili Kurultayında iştirak etmişdir.
2. 15-16 noyabr 2017-ci il tarixində Türkiyə Respublikasının Ankara şəhərində "Azərbaycan və Türkiyə türkcəsi paralelliyində ümumünsiyyət faktından ortaq türkcəyə keçid" mövzusunda məruzə ilə Uluslararasi Türk Dili Konuşan Ülkeler Kurultayında iştirak etmişdir.
3. 2-4 noyabr 2017-ci il tarixində Türkiyə Respublikasının Ankara şəhərində "Türk Kökenli Kelimelerin en Eski Fonolojik Sonluğu" mövzusunda məruzə ilə IX Uluslararası Türkce sempozyumunda iştirak etmişdir.

## MAGİSTRLƏRİN ÇAP OLUNMUŞ MƏQALƏLƏRİ

1. Təhminə Ataşlı. I Türkoloji terminologiya məsələsi. M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzuunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017, 7 dekabr, s.214-216

**Türkologiya kafedrasının müdiri:** **prof. R.Əskərov**